# Dövlətlərin nüfuzu həm də sülhə və dialoqa xidmət edən siyasətlə ölçülür



**Prezident İlham Əliyevin nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi ölkəmizin qlobal miqyasda qəbul edilən uğurlu siyasətinin, sülhün, dialoqun təşviqi istiqamətində həyata keçirdiyi ardıcıl dövlət siyasətinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin növbəti təzahürüdür. Bu nüfuzlu mükafat bəşəriyyətdə sülhə və əməkdaşlığa töhfə verən, insanların həyatının daha yaxşılaşdırılmasına təsir göstərən şəxslərə verilir.**

Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi dövlət başçımızın dünyada yüksək nüfuza malik olmasının regionda sülh və əməkdaşlığın formalaşmasına böyük töhfəsi ilə bağlıdır: "Müasir dövrdə dövlətlərin beynəlxalq nüfuzu təkcə iqtisadi və hərbi güclə deyil, eyni zamanda sülhə, humanitar dəyərlərə verdiyi töhfə, multikultural mühitin qorunması və dialoqa xidmət edən siyasəti ilə ölçülür. Bu baxımdan, Prezident İlham Əliyevin nüfuzlu mükafata layiq görülməsi ölkəmizin son illərdə həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin, sülh gündəliyinin, ölkəmizin qlobal dialoqa verdiyi töhfələrin, sivilizasiyalar arasında körpü rolunun beynəlxalq ictimaiyyət tərəfindən qəbul edildiyinin göstəricisidir".

Deputat qeyd edib ki, regionda dayanıqlı sülhün əldə edilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması və Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun ardıcıl şəkildə gücləndirilməsi Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyinin, eləcə də uzaqgörən liderlik bacarığının və yüksək diplomatik siyasətinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirib, ölkəmizi regional və qlobal səviyyədə söz sahibi olan dövlətə çevirib.

V.Rəhimzadə vurğulayıb ki, dövlət başçısının mükafatın təqdim olunması münasibətilə Birləşmiş Ərəb Əmirliklərinə səfəri, keçirilən görüşlər iki ölkə arasında münasibətlərin daha da inkişaf edəcəyinin göstəricisidir: "Bu səfər Azərbaycan-BƏƏ münasibətlərinin yüksək səviyyədə olduğunu, qarşılıqlı hörmət və etimada əsaslandığını bir daha nümayiş etdirdi. Hər iki ölkə dünyada sülh, sabitlik və inkişaf naminə ortaq mövqedən çıxış edirlər".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 7 fevral (№24).- S.12.